# SEVGİNİN QARDAŞLIQ RUHU



*Şəddat CƏFƏROV,*
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,***
***Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,***
***Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Mənim az yaşım yoxdur. Tarixin bir çox dönəmlərinin şahidi olmuşam. Böyük Sovet imperiyasının nəhəng tiranı Stalinin ölümünün necə bir psixoloji çaxnaşma yaratması yadımdadır. O vaxt insalara elə gəlirdi ki, Stalin öldüsə, demək dünya dağılacaq. Əlbəttə, dünya dağılmadı. Tarix inkişaf etdi. Başbilənlər, düşüncə adamları təzədən tarixə diqqət göstərdilər. Nələr olub, nələr baş verib? Məlum oldu ki, siyasi ittihamlarla milyonlarla insan məhkum edilib, güllələnib, sürgünlərə göndərilib. Tarix öz səhvini düzəltməyə çalışdı. Repressiya olunanlara bəraətlər verildi. İnsanlar olub-keçənləri sanki vahimə ilə müşahidə edirdilər. Ağ və qara rənglər bir-birini sürətlə əvəz etməkdə idi. Mən Xruşşov zamanını da gördüm. Bu sərtliklərin, qadağaların dəyişməsi dövrü idi. Hətta repressiya olunan nəslimizin bəraətini də gördüm; bir az da dəqiqləşdirsəm, bizi repressiyaya sürükləyən insanların tale acılığının da şahidi oldum.

Mən bütün zamanlarda insani münasibətlərin hakim olmasını istəyirəm. İstəyirəm ki, insanlar qisasçılıq hissi ilə yaşamasınlar. Tərəflər arasında ünsiyyət insanlığı qorusun. Hətta təbii fəlakətlər zamanı insanlar bir-birinə dayaq olmağı bacarsınlar. Mənim yaddaşımda çox acı bir həqiqət kimi Ermənistanda baş verən zəlzələyə yardım üçün göndərilən Azərbaycan təyyarəsinin qəzaya uğradılması hadisəsi də yaşayır. Bu ona görə acıdır ki, biz qonşunun təbii fəlakətinə yardım üçün əl uzadırıq, ancaq qonşunun mənfur niyyəti bu yardımı nəinki qəbul etmək istəmir, hətta onu faciəyə çevirir.

Tarixən siyasi zəlzələlər inqilablarla nəticələnir. Doğrudur, bu zəlzələlərdə də insanların, xüsusilə günahsız insanların ölümü qaçılmazdır. Amma axı təbii fəlakətlər də var. Zəlzələlər də var. Türkiyədə fevral ayının 6-da baş verən dəhşətli zəlzələnin miqyası ümumdünya təbii fəlakətləri sırasında demək olar ki, ön yerlərdən birini tutur. 50 min nəfərdən çox insan bu təbii fəlakətin qurbanı oldu. Milyonlarla insan evsiz-eşiksiz qaldı.

Acı mənzərə idi. Sözün həqiqi mənasında sarsıdıcı mənzərə idi. Azərbaycan bu mənzərəni seyirçi bir nəzərlə müşayiət etmədi. Bütün ruhu etibarı ilə qardaşlığın təcəssümü olaraq öz yardımını əsirgəmədi. Karvan-karvan humanitar yardımlar getdi. Zəlzələ bölgəsində ölümlə çarpışan insanları xilas etmək üçün cəsur Azərbaycan oğulları fəlakət zonasına can atdı. Bu məni qəlbən fərəhləndirirdi. Bəlkə də bu fikirlərimi əvvəlki yazılarımda da bu və ya digər dərəcədə ifadə etməyə çalışmışam. Amma əsas odur ki, mən Azərbaycanı fəlakətlə üz-üzə qalan Türkiyə ilə birlikdə görmüşəm. Hiss etmişəm ki, oradakı təbii fəlakət ağrısını buradakı hər bir azərbaycanlı öz ruhunda, varlığında hiss edir. Bir sözlə, Türkiyəyə Azərbaycan xalqı bütün imkanları ilə yardım əlini uzatmağa çalışdı. Amma ikinci bir yardım da var. Bu barədə isə ayrıca danışmağa lüzum görürəm.

Türkiyəyə ən böyük yardım mənəvi dəstək idi. Və bunun da təmsilçisi Azərbaycan ziyalısıdır. Azərbaycan yazıçısıdır. Xalqımızın ilhamlı şairləridir.

Belə bir məqamda, Türkiyənin ağır zamanında zəlzələnin yaratdığı dəhşətləri sözü ilə təsvirə gətirib tarixə yazan müəlliflər heç də Türkiyəyə milyon manatlarla maddi yardımlar göstərən kimsələrdən az xidmət göstərmirlər.

Mənim üçün fərəhli olan budur ki, Türkiyəyə mənəvi yardım üçün sözünü əsirgəməyən müəlliflərdən biri də dostum şair, publisist Əli Rza Xələflidir. Onun "Türkiyənin zəlzələ ağrıları" poemasını mən bizim mətbəədə növbədənkənar dərc etdim. Çünki mən yaxşı başa düşürdüm ki, insanların ağır zamanında, çətin məqamında yazıçı sözünə, şair sözünə onların mənəvi təskinlik üçün böyük ehtiyacı var. Bu məni elə bir dərəcədə səfərbər etdi ki, heç əsərin az qala mürəkkəbi qurumamış onun istehsalata getməsi üçün bütün imkanlarımı səfərbər etdim. Doğrudur, artıq bu barədə mən fikirlərimi demişəm. Müəllifin çox dəyərli əsərini təhlil edən və əsərə "ön söz" yazan professor Təyyar Salamoğlunun "Sözün fatehi könüllərin fatehi haqqında" adlı qeydləri ilə bağlı düşüncələrimi əhatəli şəkildə yazmışam. Bu qeydlərin əsas motivi kimi könüllərin fatehi obrazına ayrıca diqqət yetirmişəm. Axı Ərdoğan sözün həqiqi mənasında məzlum şərq xalqlarının, o cümlədən türk dünyasının, Turan mühitinin könüllər fatehidir. O bütün varlığı ilə siyasi mühiti Turanı qəbul etməyə, Turanı güc mərkəzi kimi görməyə sövq edir. Mən burada ürək ağrısı ilə onu qeyd etmək istərdim ki, Ərdoğanın Azərbaycanın tale yüklü həqiqətlərinin başa varması yolundakı xidmətlərini görməyənlər də var. Bax bu məni ağrıdan məsələdir. Ərdoğanın rəqibi məlum məsələdir ki, hansı mərkəzlərə xidmət edir. Hətta o, Azərbaycanın haqq savaşını belə bircə dəfə də olsun dilinə gətirmədi. Amma Ərdoğan demək olar ki, bütün illər boyu bizim yanımızda olub və bu gün də özünü bizdən kənarda təsəvvür etmir. Bütün bu cəhətlərin hamısını özündə ehtiva edən "Türkiyənin zəlzələ ağrıları" poeması haqqında geniş danışmağı, əhatəli söhbət açmağı özümə borc bilirəm. Hətta bu mövzuya təkrar-təkrar qayıtsam da, yenə də hesab edirəm ki, həqiqəti insanlara çatdırmaq üçün gərək varlığına hakim olan hissini, duyğunu tam ehtiva edəsən.

Əli Rza Xələflinin "Türkiyənin zəlzələ ağrıları" poeması janr baxımından mübahisə doğursa da, hər halda mən də bu əsəri bir qəsidə kimi qəbul edirəm. Ancaq müəllif əsəri məsnəvi formasında yazıb. Bunun məsələyə dəxli yoxdur. Burada əsas odur ki, müəllif böyük türk xalqının təbii fəlakətindən aldığı zərbənin ağrısını bütün miqyası ilə öz yazısına gətirə bilib. Görünür, elə bu səbəbdən də "Türkiyənin zəlzələ ağrıları" poeması çox böyük ədəbi əks-sədaya səbəb oldu. Hətta əsər qəzetdə dərc olunan kimi maraqlı rəylər, müşahidə yazıları araya-ərsəyə gəldi. Bu yazılardan birini də "Ədəbiyyat" qəzetinin əməkdaşı, şair, ədəbiyyatşünas Sərvaz Hüseynoğlu qələmə almışdı. Onun yazısının sərlövhəsi xüsusilə məni valeh etdi; "Sevgi məktubu kimi, yaxud "Türkiyənin zəlzələ ağrıları"na söz ardı". Bu bircə cümlə bəs edir ki, müəllifin nə demək istədiyini anlayaq. Hətta burada belə bir fikir də ifadə olunur ki, bu əsərlə iş bitmir. Bu əsərlə bağlı hər kəs öz sözünü davam edə bilər. Ona görə "davam edə bilər" deyirəm ki, sanki əsər münasibət bildirməyə hazır olan hər kəsə meydan verir; gəl sən də sözünü de, ehey, kənarda dayanma, düşüncələrini sözə gətir, fikrini bildir. Zənnimcə, bu düşüncələr bizə imkan verir ki, "Türkiyənin zəlzələ ağrıları" haqqında söz deyənlərin də sözünə münasibət bildirək. Onların fikir, düşüncə imkanlarına işıq tutaq. Sərvaz Hüseynoğlu sözünün əvvəlindəki cümlədə əsərdən aldığı sarsıdıcı təsiri dəqiq ifadə edib: *"Mən Əli Rza Xələflinin "Türkiyənin zəlzələ ağrıları" dastan-poemasını oxuyanda bir daha sözün, sənətin insanın varlığına necə sarsıdıcı təsir göstərə biləcəyini hiss etdim. Ancaq bu barədə bir qədər sonra..."*. Burada diqqəti çəkən odur ki, müəllif əsəri oxuyanda sözün həqiqi mənasında sarsıldığını etiraf edir. Bu sarsıntının özü əslində o deməkdir ki, insan olan hər kəs təbii fəlakəti harada baş verməsindən asılı olmayaraq həm də öz varlığında hiss etməlidir. Görünür, Sərvaz Hüseynoğlu həm də müəllifin məlum mövzunu bütün dəhşətləri ilə ehtiva edə bildiyindən özü də sarsıntı qarşısında qalıb. Bundan sonra Sərvaz Hüseynoğlu bir qədər ədəbi düşüncə tarixinə dönür. Və maraqlı mülahizələrlə düşüncələrinə meydan açır: *"Lissabon zəlzələsi baş verən günün ertəsi məşhur şair Afanasi Fet özünün sevgi şeirlərini çap etdirmişdi. Bu münasibətlə 2 gün sonra qəzetlər yazırdı: "Dünən Fet öldü! Xalq öz şairini dəfn etdi". Yəni soydaşlarının başına gələn faciəni görməzdən gəlib, özünün şəxsi iztirablarını qələmə alan şair artıq xalq, millət üçün "ölür". Maraqdan düşür. Xalqın, millətin ağır günündə onun yanında olmayan şair o xalqdan deyil. Yaşamır və yaşadılmır"*. Sərvaz müəllim nə qədər sərrast deyir. Elə zənnimcə, Sərvaz Hüseynoğlunun dediyi həmin sözləri "Türkiyənin zəlzələ ağrıları" poemasının müəllifinin də ünvanına yönəltmək olar. Amma əlbəttə, birbaşa mənada. Yəni Əli Rza Xələfli əgər Türkiyənin zəlzələ ağrıları ilə yaşamasaydı, heç bu əsəri də yarada bilməzdi. Bütün yazıçılar, şairlər dəyərli əsərlər yarada bilərlər. Amma inanmıram ki, hər bir dəyərli əsər oxucu yaddaşında asanlıqla öz yerini tapa bilsin. Amma bu mümkündür. O vaxt mümkündür ki, yazıçı da, şair də təsvir etdiyi hadisənin içərisində olsun. Bu hadisəni bütün qloballığı ilə öz varlığında da əks etdirə bilsin. Yalnız bu zaman hər bir müəllifin qələmə aldığı yazı insanların yaddaş sisteminə daxil ola bilər. Sərvaz Hüseynoğlu qələm dostu ilə bağlı düşüncələrini qələmə alarkən onun Türkiyənin mənəvi mühitinə gedən yolunu yazıya gətirir. O yaxşı başa düşür ki, "Yarı qəm, yarı qürur dastanı"nı yazmaq üçün müəllif gərək bu hadisənin içərisində olsun.

Sərvaz Hüseynoğlu yazır: *"Qələm dostum Əli Rza Xələflinin qardaş ölkədə baş verən zəlzələnin doğurduğu ağrılardan, millət kədərindən, xalq acısından qaynaqlanan "Türkiyənin zəlzələ ağrıları" adlı yarıqəm-yarıqürur dastan-poeması, oxuduğum zaman nədənsə yadıma ilk olaraq bu məlum olay düşdü. O şükranlığı yaşadım ki, milli düşüncəmizin ərdəmliyindən gələn Əli Rza Xələfli bir söz adamı olaraq millətinin yanındadı. Onun acılarını öz şəxsi faciəsi, kədəri bilir. İnamlıdı ki, qardaş Türkiyə öz qalib ruhuna yenə də sadiq qalacaq. Doğudan Batıyacan böyük bir məmləkətin özülünü atan Türk əzmkarlığı tezliklə Malatya, Xatay, Kahramanmaraş, Qaziyantəp boyunca bütün dağıntıları tezliklə aradan qaldıracaq, daha möhtəşəm, daha firavan quruculuq işləri gerçəkləşdirəcək"*. Zənnimcə, doğudan batıyacan böyük bir ruh yolunu göstərən əsərin mahiyyətini Sərvaz Hüseynoğlu düzgün tutub. O zəlzələ bölgəsinin ağrıacılarına Əli Rza Xələflinin əsəri ilə yaxınlaşa bilib. Konkret olaraq ərazilərin adını çəkir və bu yerdə o qeyd edir ki, müəllif bir söz adamı kimi böyük türkün yanındadır. Onun varlığına inamsızlığın yol açmasının qarşısında dayanıb. Hər hansı bir söz adamı öz inamı ilə, mənəvi potensialı ilə böyük bir xalqın ruhunu qorumağa çalışırsa, demək, o xalqı nəinki ötəri hadisələr, heç təbiət fəlakətləri də sarsıda bilməz. Sərvaz Hüseynoğlu poemadan sətirləri misal gətirir:

*Sultanım, gəldi gedər qovğalar səndən ötər,*
*Turandan ümmanlarca sevdalar sənə yetər...*

*Malatya, Xatay bütün... oyanar boy göstərər,*
*Qalxar Kahramanmaraş, təzədən soy göstərər*

*Dirilər Qaziyantəp, igid qazilər yurdu,*
*Doğudan Batıyacan ulayar Türkün qurdu...*

Bu bir neçə misranın içərisində həm Türkiyənin xəritəsini görürük, həm də böyük turan yolunu görürük. Ən başlıcası, müəllifin inamını da böyük türk xalqının qəlbindən keçən bir səs kimi qavrayırıq. Bütün bunların hamısı bizdə belə bir təəssürat oyadır ki, az vaxt içərisində təbii fəlakətlərin vurduğu zərbə dəf ediləcək. Fəlakətin miqyası nə qədər böyük olur, olsun, onun nəyi necə dağıtmasından asılı olmayaraq insanların ruhunu dağıda bilməyəcəyinə inam hissini duyuruq.

Əli Rza Xələfli "Türkiyənin zəlzələ ağrıları" poemasında sanki qarşısına belə bir məqsəd qoyur. Bədən başla idarə olunur. Demək, xalq da liderlə idarə olunur. Xalqın keçdiyi yolu qədərincə görmək, onu mahiyyətinə uyğun təsvir etmək üçün gərək həqiqətlərin içərisindən keçə biləsən. Sərvaz Hüseynoğlu məhz bu məqamları duyduğu üçün öz qeydlərində müəllifin düşüncələrinə inamla söykənə bilir: *" Əli Rza Xələfli bir söz adamı kimi qardaş ölkənin başçısı R.T.Ərdoğana, onun siyasi iradəsinə dərin sayğı və ehtiram duyğusunu da elə bu böyük inam, əbədi ehtiram kontekstində ifadə edir:*

*Qətiyyətin yol açır Türkün Tanrı dağına,*
*İradən işıq saçır Turanın bayrağına.*

*Sultanım, gəldi-gedər qovğalar Səndən ötər,*
*Tanrıdan ümmanlarca sevdalar sənə yetər.*

*...Sultanım, könüllərə sevgi yolu çəkirsən,*
*Turanın varlığına qürur, qeyrət əkirsən.*

*Ə.R.Xələfli qardaş ölkə başçısının ruhumuzun beşiyi, ümumtürk düşüncəsinin paytaxtı Turana yol açan ideya və çabaları ilə həmrəyliyini dərin sayğılarla ifadə edir, bu görkəmli şəxsiyyətin Alp Ər Tonqa ruhuna qəlbindən nur saçması reallığının qürurunu yaşayır ".*

***(Davamı 11-ci səhifədə)***

# SEVGİNİN QARDAŞLIQ RUHU

*(Əvvəli 10-cu səhifədə)*

Bu sözlərə nəyisə əlavə etməyə ehtiyac görmürəm. Bircə onu deyirəm ki, qüdrətli sözün yaranması üçün gərək söz sahibi həm tarixə güvənsin, həm də öz dövründə, zamanında baş verən hadisənin mahiyyətini qavrasın. Sərvaz Hüseynoğlunun qeydlərindən də göründüyü kimi müəllif Turanı bir mənəvi mühit kimi təsəvvür edir. Bu mənəvi mühitin işığı kimi Turanın qədim milli qəhrəmanı Alp Ər Tonqanın mənəvi mühitdəki tarixi rolunu düzgün qeyd edir.

Sərvaz həssas müəllifdir. İstedadlı ədəbiyyatşünasdır. Həm də bir şair kimi oxuduğu əsərin təsir dairəsini də yaxşı qavrayır. Elə ona görə də onun yazılarında reallıq xüsusilə diqqəti cəlb edir. Çünki o birbaşa əsərin özündən çıxış edir. Əsərin özünü dəyərləndirmə yolu ilə gedərək əsərin insanların ruhuna necə təsir etmək imkanında olduğunu göstərir.

S.Hüseynoğlunun məqaləsinin adını bir də yada salıram: "Sevgi məktubu kimi" - nə gözəldir. Elə buradaca S.Hüseynoğlunun öz qeydlərinin də bir sevgi məktubu kimi yazıldığına diqqəti cəlb etmək istərdim. Başqa cür əsərə güvənclə oxucu hissini, duyğusunu necə ifadə etmək olardı? Ancaq S.Hüseynoğlu belə ifadə edir: "*Müəllif dastan-poema boyunca tarixi gələnəklərə ağlın və hissin araçılığıyla nüfuz edir, örnəklərə əl aparır. Təbii fəlakətin qardaş ölkəyə yaşatdığı kədəri öz kədəri, acısı kimi təsvir edir. Eyni zamanda bu faciə önündə milli həmrəyliyin, birliyin təsəllisinə tapınır:*

*Sultanım, tək qoymarıq Səni kədər əlində,*
*Ağrı çəkir canınız qəza-qədər əlində.*

*Ümidlərdə güllənən qardaşlığın yolu var,*
*İnamlara açılan türkün sevgi qolu var...*

*...Azərbaycan bu dərdin ocağında közlənir,*
*Türkiyənin yanğısı varlığımda sözlənir.*

*Ümumilikdə "Türkiyənin zəlzələ ağrıları" dastan-poema qardaş ölkənin Tarix (və Tariximiz) səhnəsindəki tarixi yeri, qarşılıqlı sevgi və vəfadarlıq bağlarımız, soydaşlığımız, böyük iman və inamımız haqqında şeirin, sözün dililə ifadəsidi. Sevgi məktubu kimi qələmə alınıb. O qədər ilahi duyğularla sətirlənib ki, özü-özünü daha mükəmməl şəkildə ifadə edir. Bu səbəbdən də artıq şərhə, izaha, təqdimata belə lüzum qalmır. Bizə yalnız heyranlıq və minnətdarlıq duyğularıyla oxumaq qalır*". Buradaca Sərvaz Hüseynoğlunun bu dəyərli qeydlərinə yekun vurardım. Amma bircə onu deyirəm ki, bədii əsər yazılır, oxucunun ixtiyarına buraxılır. Ancaq sərrafların, söz xiridarlarının bədii əsər haqqında düşüncələri, rəyləri, yazıları oxucu ilə müəllif arasında, başqa sözlə əsər arasında sarsılmaz körpü yaradır. Zənnimcə, Sərvaz Hüseynoğlunun bu qeydləri oxucu və əsər arasında ən dəyərli ünsiyyət vasitələrindən biridir.

* * *

"Türkiyənin zəlzələ ağrıları" poeması ilə bağlı maraqlı qeydlərdən birinin də müəllifi dostum, əməkdar mədəniyyat işçisi, publisist Adil Abdullayevdir. O, "Türkiyənin zəlzələ ağrıları" poeması ilə bağlı düşüncələrinə "Türkün ocağı" adı verib. Bu geniş anlamlı bir addır. Türkün ocağı mədəniyyət ocağıdır. Dünyaya xeyirxahlıq niyyəti ilə işıq saçan ocaqdır. Eyni zamanda öz haqqı, hüququ uğrunda hərb ocağıdır. Və bir də təbii fəlakət ocağı kimi zəlzələ ocağıdır.

Zəlzələ dünyanın hər hansı bucağında ola bilən hadisədir. Kimsə deyə bilməz ki, bu hadisədən əbədi hifz olunmaq imkanındadır.

Adil Abdullayev də "Türkiyənin zəlzələ ağrıları" poeması ilə bağlı qeydlərində bu fəlakət ocağının bədii əks-sədası ilə bağlı düşüncələrini qələmə alıb. O, qeydlərinin əvvəlindəcə bu əsəri birliyimizin himni, çağırışı kimi qəbul etdiyini göstərir: "*Hər bir sənət əsəri mənəvi xəzinənin inciləridir. İnsan ruhunu təbii-təsirli və düşündürücü yaşantıların sözlə verilən görüntüləri mənəvi zənginlikləri yaradan mənbədir. «Kredo» qəzetində (10 mart 2023-cü il) çap olunmuş «Türkiyənin zəlzələ ağrıları» dastanı istedadlı şair, publisist, ədəbiyyatşünas Əli Rza Xələflinin məsnəvi ilə yazılmış bir çağırış-monoloq təsiri ilə türkçülüyümüzün birliyinə - diriliyinə güzgü tutan sənət əsəridir*". Məqalənin müəllifi daha çox "Türkiyənin zəlzələ ağrıları" poemasında hikmət təsiri bağışlayan motivlərə diqqəti yönəldir. O, aforizmlərin, hikmətli sözlərin, əsərin içərisindəki şimşək təsirini üzə çıxarmağa çalışır. Bununla da fikir ümmanında müəllifin yerini, qüdrətini göstərmək istəyir: "*Şair bu əsərində neçə-neçə poetik aforizm yaratmağı, dilimizin incəliyinin və məna tutumunun genişləndiyinin əyani təsdiqidir. Həyatda təəssüflənməli və təəccüblənməli hallar çoxdur. Milyardlarla insanların danışdığı bu səlis, rəvan, lətif dilin dünya dilləri sırasında dayanmaması zamanın ədalətsizliyidir*

*Səni bilməyən kimsə özündən xəbərsizdir,*
*Özündən xəbərsizə dan üzü səhərsizdir...*

*Bu, dastanın ikinci beytidir. Təkcə ikinci misranın poetik ponoramını təhlil etmək üçün bir kitab bağlamaq olar". Müəllif maraqlıdır ki, elə əsərin ikinci beytindən yapışaraq müəllifin fikir ümmanına nüfuz etmək istəyir. Onun təfəkkür gücünü iki misranı təqdim etməklə oxucuya çatdırır. Və göründüyü kimi qeyd edir ki, təkcə elə bu bircə beytlə bağlı bir kitab da yazmaq olar*". Adil Abdullayev ayıq ziyalıdır.



Türkiyənin tarixi taleyində Rəcəb Tayyib Ərdoğanın yerini yaxşı bilir. Onun kimliyini Türkiyənin taleyi ilə daha çox birlikdə qavrayır. Və buna sevinir ki, oxuduğu əsərdə də müəllif məhz bu mövqedədir. Zənnimcə, onun düşüncələri bizi də kifayət qədər razı salır: "*Müasir Türkiyənin - Türkiyəmizin başqanı Təyyub Ərdoğana xitabən ünvanlanmış, bu rəhbərin türk dilli xalqların coğrafiyasında hansı nüfuza malik olduğunun görüntüsüdür:*

*Qətiyyətin yol açır Türkün Tanrı dağına,*
*İradən işıq saçır Turanın bayrağına...*

*Atatürkdən - Türkiyənin bu günkü varlığını yaşadan böyük bənzərsiz şəxsiyyətin ruhuna hər zaman duaçıyıq. Yetişmiş ümumi türk birliyinin ilk siyasi- mənəvi bünövrəsinin yaradıcısı Türkiyəmizin böyük insanı Təyyub Ərdoğandır!*

*Bu əsər ruhu - yazı manerası ilə bir ponoram tipli poetik çələngdir. Həcmcə elə də böyük olmayan bu əsər - dastan öz mənəvi gücü, poetik siqlətiylə böyük məramlara güzgü tutur*". Müəllif doğru qeyd edir. Bu əsər o qədər də həcmcə böyük deyil. Amma ruhu etibarı ilə o qədər zəngin və qüdrətlidir. Bütün xəyali Turanın coğrafiyasını, mənəvi mühitini özündə ehtiva edir. Bu da onu göstərir ki, müəllif böyük Turan dünyasını təkcə bir ölkə ilə bağlamır. Ümumiyyətlə, Turanı mənəvi birlik mühiti kimi qəbul edir.

Adil Abdullayev doğru olaraq, əsərdə eyni vaxtda Xoyda baş verən zəlzələyə də biganə qalmır. Amma çox təəssüf ki, qonşu ölkə Xoy zəlzələsinə çox biganə yanaşdı. Hətta çalışdı ki, zəlzələ bölgəsindəki əhalini öz yerindən-yurdundan didərgin salsın. Bu ürəkğarıdıcı bir mənzərədir. Əsərdə də bu məqam doğru-düzgün göstərilib. A.Abdullayev də həmin məqama şərhini açıq-aydın bildirir: "*Böyük Türk dünyasının xəritəsində o taylı, bu taylı Azərbaycanımızın Xoy şəhərində də zəlzələ oldu. İran Azərbaycanının Şərqə-Qərbə-Türkiyəmizə olan qapısı qədim Xoy şəhərimiz, torpağımızın bir incisi olduğu bir faktdır. Amma bir Araz çayını keçməklə qan qardaşlarımıza ağır zamanında - ölüm-qalım zamanında İranın yaramaz qeyrfi-insanibəşəri siyasəti bizi çıxılmaz vəziyyətdə, ağrılar-acılar içində qoyur ki, bu ağrıya şair dostumuz ağı deyir:*

*Dağılmış Xoy şəhərim sinəmdə yara-yara,*
*Kök atır yağıların niyyəti qara-qara*".



Adil Abdullayev fikirlərini bu bircə beytlə və düşüncələri ilə ehtiva edir. Bu da onu göstərir ki, insanlar təbii fəlakətin harada baş verməsindən asılı olmayaraq bütün vəziyyətlərə həssas münasibətdədirlər. Axı həqiqətən Xoy da bizim mənəvi mühitimizdən kənarda deyil. Biz o yerlərin faciəsinə də biganə qala bilmərik. Hətta İran dövləti Xoy zəlzələsinə yardım etmək istəyənlərə də razılıq vermədi. Bax bu da ürək göynədən məqamlardan biridir.

Daha sonra Adil Abdullayev böyük tarixi faciələrin qədim zamanına da müraciət edir. Hətta Gəncə, Şamaxı zəlzələlərini də yada salır və sanki qədim Gəncədən, Şamaxıdan, Təbrizdən keçərək Türkiyəyə, Ərdoğanın hüzuruna qədər yol qət edir və bu yolu o, əsərdən aldığı təəssüratla gedir: "*Bir zaman Gəncədə olan böyük fəlakətin, zəlzələnin nəticəsində dağların parçalanmasından yaranan Göy Gölü Nizaminin yazdığına istinad edir:*

*Zamanında Nizami görün nədən danışıb,*
*Səmaları titrədən zəlzələdən danışıb.*

*Zaman-zaman Şamaxıda, Təbrizdə də böyük dağıntılar törətmiş fəlakəətli zəlzələlərin qaçılmaz olduğunu verən şair, bu olacağın - hadisənin sonrakı nərticəsinin çox vaxt böyük hadisələrə də səbəb olduğunu vurğulayır və ümumi dərdimizlə bir yerdə olduğumuz kimi gələcəyə də bu gündən böyük lider - başqan olan Təyyub Ərdoğanımızın qurduğu qüdrətli Türkiyə ilə getdiyimizi verməyi təbii səslənir:*

*Biz səninlə gedirik, ulu Turan dağına,*
*Sonuncu dənizəcən Türkü soran dağına.*

*Bu iki misra bizim təbiət dərdimizin könül ağrılarıdır. Dastanda Təyyub Ərdoğanımıza xitabən, mənən üz tutulanda başqanın, rəhbərin, liderin deyil - sultanım deyə olunan müraciətlər Təyyub Ərdoğanımızın siyasi lider kimi əzəmətini, qüdrətini və ucalığını göstərir*". Beləliklə, tarix və zaman "Türkiyənin zəlzələ ağrıları" əsərində qoşa addımlayır. Eyni zamanda əsər haqqında yazan müəlliflərin özləri də elə sözlə birgə irəliləyir.

Adil Abdullayev əsərdən aldığı təəssürat əsasında böyük türk lideri Rəcəb Tayyib Ərdoğanın kimliyi haqqında da söz açır. Onu qədim türk ərənlərinin varisi kimi gördüyünü və bu gördüklərinin əsərdə qədərincə öz əksini tapdığını məmnunluqla qeyd edir.

Adil Abdullayev kifayət qədər hazırlıqlı ziyalıdır. O yaxşı bilir ki, Türkiyənin tarixi taleyində yeri, rolu olan qüdrətli simaların hər biri bu böyük Turan liderinin dünyada sülh və barış adamı olduğuna inam gərəkdir.

Rəcəb Tayyib Ərdoğan böyük türk, Turan obrazıdır. Ancaq o məhdud millətçi deyil. Rus-Ukrayna savaşında dünyanın taxıl fəlakəti ilə üzləşməməsi üçün necə əvəzsiz xidmət göstərdi - bunu hər birimiz gördük və bildik.

Böyük siyasi liderlər təkcə öz əməllərində yaşamırlar. Həm də xalqların, özü də ən müxtəlif xalqların düşüncələrində, yaddaşlarında yaşayırlar. Adil Abdullayevin düşüncələrindən də məhz bu duyğular "Türkiyənin zəlzələ ağrıları" əsərinin fonunda daha aydın görünür.

*(Davamı var)*